NİGAR DÜNYAMALIYEVA
*BDU-nun Diplomatiya və müasir inteqrasiya rosesləri kafedrasının müəllimi, s.e.n.*

# AVROPA İNTEQRASİYASININ ELMİ-NƏZƏRİ ƏSASLARI

Müasir beynəlxalq münasibətlərin və dünya siyasətinin dövlətlərarası müstəvidə təzahür edən əsas tendensiyalarından biri beynəlxalq inteqrasiya hesab olunur. Bu proses, əsasən, müəyyən bölgələrdə həyata keçirildiyinə görə, siyasi ədəbiyyatda onu beynəlxalq regional inteqrasiya adlandırırlar.

Yaşı orta əsrlərə gedib çıxan «inteqrasiya» termini latınca «integratio» sözündən olub, bərpaetmə, tamalama kimi məna verir və bu ad altında «müxtəlif elementlərin tamda birləşdirilməsi» nəzərdə tutulur.(4, s.402) İnteqrasiya dövlətlərin iqtisadi, sosial, mədəni və siyasi həyatının elə yaxınlaşma vəziyyətidir ki, bu müstəvidə cərəyan edən proseslər bir dövlətin daxilində ayrı-ayrı regionlar arasında cərəyan edən proseslərdən demək olar ki, heç nə ilə fərqlənmir. Həm də bütün bu sahələrin idarə edilməsində, onların fəaliyyət yönümlərinin və prinsiplərinin müəyyən edilməsində əsas rolu milli idarəetmə orqanları deyil, ümumi dövlətlərarası orqanlar həyata keçirir.

İnteqrasiyanın öz başlangıcını əməkdaşlıqdan götürməsi nəzəri cəhətdən sübuta ehtiyac olmayan məsələdir. Belə ki, dövlətlərarası əməkdaşlığın uzunmüd-dətli təkamülü prosesində tərəflər arasında elə münasibətlər yaranır, qarşılıqlı asılılıq o dərəcədə güclənir ki,dövlətlərarası münasibətlərin inkişafında yeni mərhələ – inteqrasiya zərurətə çevrilir. (2, s.36)

Regional inteqrasiya mahiyyətinə görə obyektiv və kortəbii baş verən proses olsa da, məqsədlərinə görə dövlətlərin düşünülmüş şəkildə həyata keçirdiyi və tənzimlənən qarşılıqlı fəaliyyət növü hesab edilir. (1, s.165) Prosesin kortəbiiliyi onunla ölçülür ki, eyni bir regionda yerləşən, oxşar iqtisadi, sosial və siyasi yönümü olan dövlətlərin milli təsərrüfat və bazar sistemləri getdikcə bir-birindən asılı vəziyyətə düşür, onlar arasında beynəlxalq əmək bölgüsü dərinləşir və milli sərhədlər ümumi inkişaf yolunda maneəyə çevrilir. Öz ölkələrinin sosial-iqtisadi inkişafını təmin etməyi qarşısına məqsəd qoyan dövlətlər məcburiyyət qarşısında bu kortəbii və obyektiv proseslərə müvafiq olaraq müdaxilə edir, müəyyən ümumi razılığa gəlir, hamı üçün məqbul hesab edilən qaydalar yaradılır və bu qaydalara nəzarət edən dövlətlərarası institutlar təsis edirlər. Beləliklə, kortəbii başlanan regional inteqrasiya prosesi dövlətlərin və dövlətlərarası təşkilatların idarəsinə alınır və tənzimlənir.

Regional inteqrasiya prosesi dünyada ilk dəfə olaraq üzv dövlətlərin bərabərhüququ gözlənilmək şərtilə Qərbi Avropada başlanmışdır. (1, s.166) İkinci dünya müharibəsindən sonra ciddi iqtisadi böhran yaşayan Qərbi Avropa ölkələri bəzi iqtisadi sahələrdə birgə hərəkət etmək haqqında qərar qəbul etdilər. O dövrdən keçən müddət ərzində Qərbi Avropa bütün dünyaya bərabərhüquqlu və qarşılıqlı faydalı inteqrasiyanın əsl nümunəsini nümayiş etdirdi.

Avropa inteqrasiyasının qurucuları abstrakt nəzəri sxemlər əvəzinə öz ölkələrinin praktik maraqları və Birliyin ümumi maraqlarını rəhbər tutaraq hərəkət edirdilər. Maraqlıdır ki, praktik inteqrasiyanın mənbələri Avropa, onun nəzəri izahının metodları isə daha çox Amerika mənşəli olmuşdur. Lakin bu inteqrasiya nəzəriyyələrinin elmi əhəmiyyətini heç də azaltmır. Nəzəriyyələr – inteqrasiya proseslərinin əks olunduğu böyüdücü güzgü rolunu oynayır, həmin güzgüyə baxaraq siyasətçilər və ictimaiyyət öz təsadüfi və ya düşünülmüş hərəkətlərinin məntiqini və doğurduğu nəticələri daha yaxşı görə və anlaya bilərlər.

Birinci dünya müharibəsi Qərbi Avropada milli dövlətlərə və suverenliyə əsaslanan milli dövlətlərin Versal sisteminə dair ümidsizlik yaratdı. Bu əhval-ruhiyyə o dövrdə yaranmaqda olan Avropanın birləşdirilməsi lahiyələrinin mənəvi əsası idi. Paralel olaraq milli dövlətlərin uğursuzluğa məhkum olduğunu məntiqi izah etməyə, yeni Avropa və dünya nizamının qurulması zərurətini izah etməyə çalışan elmi məktəblər meydana gəlirdi, onların məqsədi müharibəni cəmiyyətin və xalqların həyatından birdəfəlik silmək idi.

Bu nəzəri istiqamətlər sırasında heç şübhəsiz mərkəzi yerlərdən biri federalizmə aiddir. (7) Qərbi Avropa federalizminin iki dünya müharibəsi arasındakı dövrdə mənbəyi bir tərəfdən beynəlxalq münasibətlərin xaotik sisteminin yenidən qurulmasına dair əvvəllər mövcud olmuş layihələr və ideyalar, digər tərəfdən isə federalizmin artıq dərin kök saldığı və öz üstünlüklərini sübut etdiyi Amerika Birləşmiş Ştatlarının nəzəriyyə və təcrübəsi oldu.

Federalistlər belə bir mövqedən çıxış edirdilər ki, milli eqoizm torunda dolaşan Qərbi Avropa dövlətləri üçün federativ sistem ideal olacaqdır. Onlar qeyd edirdilər ki, təbiəti etibarilə federativ forma federasiyanın mərkəzi orqanları ilə hissələri arasında ən məqbul nisbətin tapılması üçün əlverişlidir. Federasiyanın başlıca prinsipi hakimiyyətin iki səviyyəsinin -mərkəzi və yerli (regional) səviyyələrinin yaradılmasıdır. Ərazi vahidləri öz hakimiyyət səlahiyyətlərinin bir hissəsini mütləq mərkəzi hakimiyyətə verməli, eyni zamanda öz bütövlüyünü qoruyub saxlamalı və müəyyən muxtariyyata malik olmalıdır. Federalistlərin fikrincə, dövlət xadimlərinin vəzifəsi elə siyasət həyata keçirməkdir ki, bu bir tərəfdən federasiya subyektlərinə mərkəzi təsisatlar vasitəsilə ümumi vəzifələri effektiv həll etməyə, digər tərəfdən isə sübyektlərə öz muxtariyyatlarını gücləndirməyə imkan versin.

Federalist siyasətçilər federasiyanı bilavasitə siyasi məqsəd, onun yaradılmasını isə konstitusiya aktı qismində nəzərdən keçirirdilər. Federalist alimlər isə dövlət quruluşunun konstitusion forması kimi federasiya ilə ideologiya olan federalizm arasında sərhəd çəkirdilər. Dövlət quruculuğunun rəhbər prinsipi kimi federalizm müxtəlif nəticələr verə bilər, fərqli federasiyaların yaranmasına gətirib çıxara bilər – mərkəzçi, mərkəzdənqaçma, balanslaşdırılmış formalarda təzahür edə bilər. Alimlərin fikrincə, federasiya həm antidemokratik superdövlət qurmaq niyyətində olanlar, həm də liberal siyasi plüralizm tərəfdarları üçün əlverişli təşkilati forma qismində çıxış edə bilər.

Qeyd etmək lazımdır ki, iki dünya müharibəsi arasındakı dövrdə mərkəzçi tendensiya üstünlük təşkil edirdi. Federalizm tərəfdarları federasiyanı konfederasiyaya qarşı qoymaqla dövlətüstü federativ dövlətin 3 əsas üstünlüyünü qeyd edirdilər:

- «miqyasa qənaət» və yaxud başqa sözlə desək daha böyükmiqyaslı məsələlərin daha effektiv həlli imkanı;
- konstitusion formalaşmış federasiyada hakimiyyətin hər hansı bir qrup tərəfindən zəbt edilməsinin mümkünsüzlüyü;
- beynəlxalq münasibətlər kontekstində cəm ( yəni federasiya) onu əmələ gətirən hissələrdən ( yəni subyektlərdən) – milli dövlətlərdən daha çoxdur. (6, s.320)

Lakin qeyd etmək lazımdır ki, nəzəriyyənin müsbət istiqamətləri ilə yanaşı heç şübhəsiz çatışmazlıqları da yox deyil. Federalizmin nəzəri müddəalarının hərtərəfli təhlili bir neçə mühüm məqama diqqət çəkməyə imkan verir:

- Federalistlər milli dövlət hakimiyyətini dövlət hakimiyyətinin öz vasitələri ilə məhdudlaşdırmağa çalışırdılar. Belə ki, mərkəzçi federativ dövlət hakim dairələrlə kütlələr arasında uçurumu böyüdür, bu baxımdan milli dövlət federasiyaya nisbətən siyasi demokratiyanın daha məqbul formasıdır.

- Qeyd etmək olar ki, federasiya ona daxil olan nisbətən kiçik dövlətlər arasında müharibə təhlükəsini aradan qaldırmağa müvəffəq olsa da, daha böyük xarici qüvvələrlə federasiya arasında rəqabət gedişində genişmiqyaslı münaqişə mənbəyinə çevrilə bilər.

- Federalizm fəlsəfəsi dayaq nöqtəsi kimi məhz siyasi başlangıcı görür, daimi sülh axtarışında iqtisadi amil isə diqqətdən kənarda qalır. Lakin nəzərdən qaçırmaq olmaz ki, məhz iqtisadi amil siyasi inteqrasiyanı sürətləndirə yaxud da əngəlləyə bilər.

Federalizm tənqidçilərinin səsləndirdiyi fikirlərin təsiri altında federalistlər arasında bu formanın «yuxarıdan» deyil, əksinə tətbiqinin tərəfdarları meydana gəldi. Onlar daha praqmatik qərarlar xeyrinə xalq hərəkatını gücləndirməyi və təbliğat aparmağı tövsiyə edirdilər. (6, s.321) Bu baxımdan Avropada inteqrasiya proseslərinin meydana çıxdığı dövrdə nəzəri baxımdan qərb elmi fikri federalizm nöqteyi-nəzərdən üç mümkün inkişaf yolunun gerçəkləşə biləcəyini sezirdi:

- ənənəvi ittifaqlar səviyyəsində əməkdaşlıq və ya dövlətlərarası birliklər – bu birliklərdə dövlətlərin suveren hüquqları və müstəqilliyi tam təmin olunur;

- federasiya vasitəsi ilə bir sıra sahələrin vahid hakimiyyət strukturlarının yaradılması;

- ixtisaslaşmış təsisatları fəaliyyət birliyinin çıxış nöqtəsi kimi qəbul edir, bu fəaliyyət birliyi nəticəsində əməkdaşlığın sadə formalarından istifadə etməklə inteqrasiyanın federativ modelini yaratmağı nəzərdə tuturd ular. (6, s.321)

XX əsrin 20-30-cu illərinə aid ikinci elmi istiqamət funksionalizmdir, millət-dövlətlərin dağıdıcı eqoizminə qarşı yönəlmiş tamamilə fərqli fəlsəfi prinsiplərə söykənirdi. Onun tərəfdarları belə bir fikirdən çıxış edirdilər ki, münaqişələr və müharibələr insan təbiətinin anadangəlmə xüsusiyyəti deyil. İnsanlar müəyyən şərtlər altında sülhsevər rasional inkişafa qadirdilər. Lakin bu şərtlər dövlət təzyiqi olmadan təmin edilməlidir.

Funksionalizmin banisi Rumıniyada anadan olmuş, lakin həyatının çox hissəsini Böyük Britaniyada çalışmış D.Mitrani olmuşdur. (10) Federalistlər kimi, o da dövlətlər arasında müharibələrə son qoymaq üçün yollar, vasitələr axtarırdı. Federalistlərdən fərqli olaraq o hesab edirdi ki, bunun üçün heç də beynəlxalq birliyin ideal formasını axtarmağa gərək yoxdu, onun (yəni beynəlxalq birliyin) həyata keçirməli olduğu funksiyalara açıqlıq gətirmək yetərlidir.

Müəllif Millətlər Liqasının uğursuzluqlarını analiz edərək belə nəticəyə gxəlir ki, siyasi inteqrasiyanın hər hansı ilkin modeli məğlubiyyətə məhkumdur. Millətlər Liqası ona görə uğursuzluğa düçar oldu ki, dövlətlər bu təşkilatda öz suverenlikləri üçün təhlükə yarandığını hiss etdilər. Buradan irəli gələrək Mitrani hesab edir ki, ikinci dünya müharibəsi başa çatdıqdan sonra dünyada sülhün qorunması üçün növbəti beynəlxalq institutun yaradılmasına ehtiyac yoxdur. Bunun əvəzinə dövlətlər arasında sosial-iqtisadi, mədəni və s. Xarakterli əməkdaşlığı genişləndirmək zəruridir. (10, s.121) Nəticədə bu əməkdaşlığın özü dövlətlərarası əlaqələrdə elə orqanların yaradılmasına gətirib çıxardacaqdır ki, bunsuz siyasi inteqrasiyanın genişlənməsi mümkün olmayacaq. İlk növbədə münaqişələrin iqtisadi və sosial səbəbləri aradan qalxmış olacaq, sonrakı mərhələdə isə hakimiyyət strukturlarının inteqrasiyası mümkün olacaq, yalnız uzunmüddətli əməkdaşlıq inteqrasiyanın ikinci mərhələsini şərtləndirə bilər.

Funksionalizm insan ehtiyaclarının və maraqlarının üstünlüyü prinsipindən çıxış edir, insani «müqəddəs» millət-dövlətdən və ya hər hansı ideologiyadan üstün mövqedə görürdü. Bundan əlavə, 20-30-cu illərin funksionalistləri əmin idilər ki, millət-dövlət fərdi və ictimai ehtiyacları ödəmək, qane etmək iqtidarında deyil. Əsas səbəb ondadır ki, milli dövlət öz şəxsi maraqlarına malikdir, bu maraqlar cəmiyyətin maraqlarından fərqlənir və bu səbəbdən dövlətin fəaliyyəti ictimai rifahın təmin edilməsindən uzaq-

laşır. Buradan belə nəticəyə gəlmək olar ki, insanlar öz ehtiyaclarını rasional müəyyən etməli və elə təsisatlar yaratmalıdır ki, onlara verilən funksiyaların öhdəsindən gələ bilsinlər.

Mitrani siyasətçiləri və onların rəhbərlik etdiyi dövləti hakimiyyəti ələ almaq və qoruyub saxlamaq məqsədi daşımaqda və ictimai rifahı düşünməməkdə ittiham edirdi. O əmin idi ki, beynəlxalq və transmilli təşkilatlar insanların bir sıra tələbatlarını milli dövlətlərdən daha effektiv ödəmək iqtidarındadır. O belə təşkilatların yaradılmasının iki üstünlüyünü qeyd edir:

- onların qarşısında duran vəzifələri effektiv yerinə yetirməsi insanların milli dövlətlərə olan loyallığını azaldacaq;
- onların mövcudluğu beynəlxalq münaqişə riskini xeyli dərəcədə aşağı salacaq.(6, s.323)

Funksionalizmin tərəfdarları əmin idilər ki, funksiyalar birinci dərəcəli, onların təcəssüm etdiyi formalar isə ikinci dərəcəlidir. Federalizmin «dünya hökuməti»nin qurulması ideyasının əleyhinə çıxış edir, milli dövlətin bir qədər zəiflədilməsi zərurətini, konkret vəzifələrin yerinə yetirilməsinə istiqamətlənmiş çoxsaylı ixtisaslaşmış qurumların yaradılması zərurətini qeyd edirdilər.

Qeyd etmək lazımdır ki, ikinci dünya müharibəsindən sonra ilk addımlarını atan Avropa inteqrasiyası federasiya idealına sadiq olan siyasi xadimlər tərəfindən başladıldı. R.Şumanın bəyannaməsində deyilirdi: «Avropa vahid plana əsasən birdən-birə yaradılmayacaq, əvvəlcə de-fakto həmrəylik qurulacaq, daha sonra konkret nailiyyətlər vasitəsilə Avropa qurulacaq».

Siyasi paradiqmanın dəyişməsi elmi analiz sahəsində də dəyişikliklərə səbəb oldu. Federativ superdövlət yaradılması lehinə aparılan «nəzəri» təbliğat yerini inteqrasiyanın ilk praktik addımlarını əks etdirən beynəlxalq əməkdaşlıq nəzəriyyələrinə verdi. Yeni nəzəriyyələr sırasında üstünlük qazananlardan biri neofunksionalizm oldu. Onun əsası Ernst Xaas tərəfindən qoyulub. (8) Neofunksionalizm erkən funksionalizm, eləcə də kommunikasiya nəzəriyyəsi ilə bağlı idi desək, zənnicə yanılmarıq, lakin bir sıra mühüm fərqlərin olması da xüsusi qeyd olunmalıdır.

Fərqlər sırasında ən mühümlərindən biri inteqrasiya prosesində siyasi faktorun zəruriliyinin qəbul edilməsi idi. E.Xaas inteqrasiyanın ictimai proseslərlə, hər hansı ümumi plana malik olmayan, öz maraqlarını həyata keçirməyə çalışan siyasi baxımdan aktiv qrupların məqsədyönlü fəaliyyəti ilə əlaqələndirirdi. E.Xaasın fikrincə, inteqrasiya bu spontan qarşılıqlı siyasi fəaliyyətin nəticəsidir. (8)

Neofunksionalizm XX əsrin 50-60-cı illərdə qərb, xüsusilə də ABŞ elmində təsdiqini tapmış plüralist yanaşmanın istiqamətlərindən biri idi. Bu yanaşma çərçivəsində dövlətin sərbəst rolu üçün yer qalmır. İnteqrasiyaprosesini neofunksionalistlər aşağıdakı kimi görürdü:

İndustrial, plüralist və bürokratik Qərbi Avropa müxtəlif qrup maraqların qarşılıqlı əlaqədə olduğu sahədir. İnteqrasiya təsisatlarının meydana gəlməsi və uğur qazanması siyasi prosesin nəticəsinə təsir göstərməyə çalışan qrupların fəaliyyətində iki əsas dəyişikliyə səbəb olur:

- onlar istisna olaraq milli dövlətlərə istiqamətləndirməkdən imtina edir və öz səylərinin bir qismini yeni institutlara yönəldir. Beləliklə, tədricən «loyallığın» milli hakimiyyətdən «millətüstü» hakimiyyətə keçidi baş verir;
-millətüstü təsisatlara daha aktiv təsir məqsədilə təsir qrupları öz siyasi taktikasını dəyişə bilir.

Bu dəyişikliklərin maneəsiz baş verməsi üçün transmilli təsisatlara cəmiyyət arasında birbaşa əlaqə mexanizmi yaradılmalıdır, milli dövlətin beynəlxalq siyasi arenada

Tarix və onun problemləri, №3 2009
milləti təmsil etmə inhisarı aradan qaldırılmalıdır. Başqa sözlə, neofunksionalistlərin fikirlərindən belə nəticəyə gəlmək olar ki, inteqrasiya təsisatları klassik beynəlxalq təşkilatların bir forması ola bilməz. Belə ki, klassik beynəlxalq təşkilatlar cəmiyyətlər və xalqlar arasında deyil, hökumətlər arasında əməkdaşlıq həykata keçirmək məqsədilə yaradılır və fəaliyyət göstərir.

E.Xaas və tərəfdarlarının fikrincə, Avropa inteqrasiyası həm milli dövlətlə, həm də milli dövlətlərin məlum əməkdaşlıq formalarından olan – hökumətlərarası təşkilatlar, konfederasiya və federasiya ilə müqayisədə keyfiyyət baxımından yeni təzahürdür.(8)

Onların fikrincə, inteqrasiya dövlət fəaliyyətinin təkcə formasının deyil, həmçinin məzmununu da dəyişir. Funksionalistlər kimi onlar da texnokratiyanın rolunun artmasını vurğulayır. Texnokratiya istehsalın kapitalist üsulunun qəliz mexanizmini idarə etmək üçün zəruri ekspert biliklərinə malik şəxslərdir.

Neofunksionalizmin mərkəzi elementi sıçrama (spillover) konsepsiyasıdır, erkən neofunksionalistlər tərəfindən Monne metodunun nəzəri əsaslandırılması üçün bu konsepsiyadan istifadə edilib. Qeyd etmək yerinə düşər ki, «Monne metodu» adını almış prinsiplər əslində Qərbi Avropa inteqrasiyasına gələcəkdə böyük uğurlar gətirən fəaliyyətin əsasını təşkil edirdi. Bu prinsiplərə əsasən:

- iqtisadi inteqrasiya siyasi birlikdən əvvəl baş verməlidir, başqa sözlə inteqrasiya «aşağıdan yuxarı» aparılmalıdır;
- uğurlu inteqrasiyanın başlısa təminatçısı məhz dövlətüstü prinsipidir, bu prinsip milli dövlət tərəfindən öz suverenliyinin bir qisminin dövlətüstü orqanlara verilməsini nəzərdə tutur;
- inteqrasiya quruculuğu gedişində ilk növbədə sadə vəzifələr, bütün iştirakçı dövlətlər arasında razılığın əldə olunduğu məsələlər həll olunmalı, daha sonra bu əsasda daha mürəkkəb vəzifələrin həlli üçün zəmin formalaşdırılmalıdır.

Leon Lindberqin fikrincə, sıçrama effekti o zaman baş verir ki, müəyyən bir məqsədlə həyata keçirilən hərəkət elə situasiya yaradır ki, ilkin qarşıya qoyulmuş məqsədə çatmaq üçün növbəti addımların atılması zəruri olur, onlar da öz növbəsində əlavə addımların həyata keçirilməsini zəruri edir. (9,s.185)

Sıçrama məntiqinə əsasən inteqrasiya tədricən yeni-yeni sahələrə tətbiq edilməli, dərinləşməli, inteqrasiyanın sadə formalarından daha yüksək formalara keçid baş verməli idi. Azad ticarət zonasının gömrük ittifaqına, daha sonra ümumi bazara, iqtisadi ittifaqa və valyuta ittifaqına keçməsi buna bariz nümunə ola bilər. Avropa İttifaqının tarixinə nəzər salsaq inteqrasiyanın getdikcə genişlənməsinin, yeni-yeni sahələrə tətbiq edilməsinin şahidi oluruq.

Funksionalistlərdən fərqli olaraq neofunksionalistlər sıçrama effektinin avtomatik baş verməsini mümkün hesab etmir, bunun üçün məqsədyönlü siyasi fəaliyyətin zəruri olduğunu vurğulayırdılar. Buradan belə nəticəyə gəlmək olar ki, inteqrasiya ilk növbədə o sahələrə tətbiq və inkişaf etdirilməlidir ki, görünən nəticələr versin. Başqa sözlə inteqrasiya iqtisadi baxımdan əsaslandırılmalıdır. Bu məsələdə cəmiyyətin dəstəyinə o zaman ümid etmək olar ki, inteqrasiya prosesləri cəmiyyətə və müxtəlif sosial qruplara real nəticə vermiş olsun.

Neofunksionalizm inteqrasiya təsisatlarının millətüstü xarakterini sadəcə üstünlük deyil, inteqrasiyanın müvəffəqiyyətinin vacib şərti hesab edirdi. Bir dəfə yaradılmış inteqrasiya qurumları müstəqil inkişaf etmək imkanına malik olurlar. Onların fikrincə, bu, Avropa İqtisadi Birliyini digər beynəlxalq təşkilatlardan fərqləndirən başlıca xüsusiyyətdir (klassik beynəlxalq təşkilatlar milli dövlətlərin maraqları tələb etdikdə yaradılır, maraqlar dəyişəndə isə dağılır).

### *ƏDƏBİYYAT:*

1.Həsənov Ə.M.Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.,Azərbaycan, 2005
2.Hüseynova H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997).B.,Hərbi nəşriyyat, 1998
3.Бургонов О.В. Международная интеграция – тенденция XXI века.СПб, 1999
4.Дипломатический словарь. Том 1, М.,У.М.,1984
5.Международные отношения: теории, конфликты, организации. Под ред. П.А.Цыганкова.М.,Алфа-М, 2004
6.Шемятенков В.Г.Европейская интеграция. М., Международные отношения, 2003
7.Altiero Spinelli and federalizm in Europe and in the world / Ed. by Levi L. – Milano, 1990
8.Haas E. Turbulent Fields and study of Regional Integration // International Organization, 1976, N 30
9.Linberg Leon. The political Dynamics of European Economic Integration. – Stanford, 1963
10.Mitrany D.A. Working Peace System. An Argument for the Functional Development of International Organization. L., 1946
11.Rosamond B. Theories of European Integration. – L., 2000

**НИГЯР ДУНИЙАМАЛИЕВА**

### ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ЕВРОПЕЙСКОЙ ИНТЕГРАЦИИ

В данной статье исследуется проблема региональной интеграции и ее теоретические основы. Подробно излагаются теории интеграции, такие как федерализм, функционализм и нео-функционализм.

В переводе с латинского слово «интеграция» означает сращивание частей в единое целое, состояние связанности отдельных частей и функций системы в целом, а также процесс, ведущий к такому состоянию. В основе региональной интеграции, в том числе западноевропейской, лежат, с одной стороны, стихийный процесс усиления взаимозависимости национальных хозяйственных систем, рост взаимозависимости экономики различных стран, а с другой – сознательное совместное регулирование государствами их взаимных экономических связей, создание наднациональных структур по управлению интеграционными процессами.

Региональная интеграция впервые началась в Западной Европе после второй мировой войны в экономике, переживавшей тяжелый кризис. В дальнейшем интеграция вышла за чисто экономические рамки; в настоящее время интеграционные процесы развиваются в социальной, культурной, военной, политической и других областях.

**NIGAR DUNYAMALIYEVA**

### THE THEORIES OF EUROPE'S INTEGRATION

The article explores the issue of regional integration and its theoretical basis, theories of integration, such as federalizm, functionalizm and neofunctionalizm are analized. The word "integration" means the merging of parts info a whole, the connection of individual parts and functions of the system as a whole, as well as the process leading to such a state. The regional integration, including the West Europe integration, is based on the one hand, on natural process of growing interdependence of national economies,the growth of interdependence of national economies, and with another – the deliberate co-regulation by States of their mutual economic relations, the creation of structures for managing integration processes. Regional integration first began in western Europe aafter the Second World War in the economy, face a severe crisis. In the future, the integration has gone beyond the purely economic framework, the current integration processes are developing in the social, cultural, millitary, political and other fields.

***Rəyçilər:** s.e.n. Məmmədov K.C., t.e.d.M.B.Fətəliyev.*

***BDU-nun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi Elmi Şurasının 29 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***